*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 162-179*

# *ƏDƏBİYYATŞÜNASLIQ*

https://doi.org/10.62837/2025.2.162

**SƏBUHİ QƏHRƏMANOV**
filologiya üzrə fəlsəfə doktoru,
Azərbaycan Dillər Universitetinin
elmlər doktoru proqramı üzrə dissertantı
Rəşid Behbudov küç., 134
gahramanovsabuhi@gmail.com

## MƏMMƏD ARAZ POEZİYASINDA AZƏRBAYCANÇILIQ FƏLSƏFƏSİ

### Xülasə

Yaradıcılığında Azərbaycançılıq məfkurəsini təcəssüm etdirən şairlərdən biri də Məmməd Arazdır. Azərbaycançılıq ideya və görüşləri onun şeirlərinin mayasında, cövhərində dayanır, bütün yaradıcılığı boyu yüksələn xətlə davam edərək bütöv və bitkin konseptuallıq kəsb edir. Şairin Vətən sevgisindən, Vətənə aşiqlikdən başlayan duyğuları Azərbaycan idealını ifadə edən mükəmməl bir proqram və kontentə çevrilir. Onun poeziyasında Azərbaycançılıq fəlsəfi mahiyyətlidir. Şairin yaradıcılığında Vətən fəlsəfəsi – təbiət, torpaq, tarix (tarixi-mədəni yaddaş), insan başlanğıclarından güc alıb Araz simvolikasında üzvi şəkildə qovuşur, Azərbaycan fəlsəfəsinə, Azərbaycançılıq ideologiyasına çevrilir. Sovet dövründə Məmməd Araz Azərbaycançılıq əqidəsini açıq manifestasiya edən şairlərdən olmuşdur. Onun Azərbaycançılıq təlimində Azərbaycan xalqının mədəni-mənəvi varlığı Vətən coğrafiyası, Vətən tarixi qədər zəngin, dəyərli və özünə bərabərdir. Məmməd Araz şeirindən xalqın qəhrəmanlıq tarixi kimi, ədəbiyyat, söz adamlarının da obrazı, irsi, dəyərləri ayrılmaz bir xətt kimi keçir. Şair klassiklərdən aldığı vətəndaşlıq dərsini Araz yaradıcılığında başlıca Azərbaycançılıq qayəsinə çevirir. Vətəndaşlıq missiyası M.Araz şeirinin əsas atributlarındandır və onun vətəndaşlıq lirikasında mərkəzi yeri təxəllüsünü götürdüyü Araz mövzusu tutur. Cənub mövzusu şairin yaradıcılığının başlıca hədəfi, predmetidir. Bilavasitə “Araz şeirləri”ndən başqa, “ikiyə bölünmüş Vətən” motivi, Azərbaycanın bütövlüyü ideyası onun bir çox şeirlərindən keçir. Cənub ağrısı Məmməd Araz poeziyasında mübariz mövqedən qoyulur, reallığı əks etdirməklə yanaşı, reallıqla barışmayan millət ruhunu ifadə edir. O, Azərbaycanın bütöv olacağına həmişə inanır, şeirlərində bu, yuxularda, arzu və xəyallarda real mənzərə kimi canlanır. Məmməd Araz poeziyası oxucunu təbiət, torpaq, yurd sevgisi, tarix-mədəniyyət, mənəvi yaddaşla silahlandırıb ona vətəndaşlıq dərsi öyrədir. Məmməd Araz şeiri fəlsəfi mahiyyəti, aforistik gücü ilə beyinləri və qəlbləri

ələ alıb dillərə düşür. Şairin poeziyası Azərbaycan oxucusunu 1990-cı illərin müstəqillik savaşına, Vətən imtahanına hazırlayan poeziya olmuşdur.

**Açar sözlər:** *Məmməd Araz şeiri, Azərbaycançılıq qayəsi, təbiət şeirləri, torpaq-yurd sevgisi, istiqlalçı şairlər, fəlsəfi lirika, aforistik ifadələr*

## GİRİŞ

Poeziyasında, bütünlükdə həyat yolu və yaradıcılığında Azərbaycançılıq mövqeyində duran, bu əqidəni zirvələrə qaldırıb təcəssüm etdirən şairlərdən biri də Məmməd Araz olmuşdur. Çağdaş Azərbaycançılıq ideologiyasının banisi Ümummilli Lider Heydər Əliyev şairin yaradıcılığına yüksək qiymət verərək onun zəmanəmizin sənət zirvəsində dayandığını demişdir. Ulu Öndər 1995-ci ildə Məmməd Arazın yaradıcılıq gecəsində iştirak edərək şairin yaradıcılığına böyük önəm vermişdir: "Bu gün biz bir daha Məmməd Arazın Azərbaycan xalqının mədəniyyətinə, ədəbiyyatına verdiyi töhfələri gördük, eşitdik və bunların xalqımız üçün nə qədər faydalı, gərəkli olduğunu bir daha bildik, bir daha dərk etdik ki, Azərbaycan xalqının həyatında Məmməd Arazın yaradıcılığının nə qədər böyük əhəmiyyəti var" (6, s. 182).

Məmməd Araz poeziyasında Azərbaycançılıq əqidəsi biryönlü, yalnız tərənnüm səciyyəsində təzahür etmir. Azərbaycançılıq ideya və görüşləri onun şeirlərinin mayasında, cövhərində olmaqla, bütün yaradıcılığı boyu, müxtəlif səviyyə və təzahürlərdə şəkildən-şəklə, cilddən-cildə düşərək, yüksələn xətlə davam edib bütöv və bitkin konseptuallıq kəsb edir. Vətən sevgisindən, torpağına-daşına, havasına-suyuna, təbiətinə-gözəlliyinə, elinə-yurduna, evinə-ocağına, millətinə-kökünə bağlılıqdan, Vətənə aşiqlikdən başlayan şairin yaşam və duyğuları sonda Azərbaycan ideyası və idealını ifadə edən mükəmməl bir proqram və kontentə çevrilir.

## ƏSAS HİSSƏ

Məmməd Arazın poeziyasında Azərbaycançılıq fəlsəfi mahiyyətlidir.

Mən Arazda şaxələnən çinardım,
Ömrü boyu tufan əydim, su yardım.
Xətayinin qılıncını suvardım,
Məmməd Araz karandaşı göyərdi... (4, s. 171).

Məmməd Arazın yaradıcılığında Vətən fəlsəfəsi – təbiət, torpaq, tarix (tarixi-mədəni yaddaş), insan başlanğıclarından güc alıb Araz simvolikasında üzvi şəkildə qovuşur, Azərbaycan fəlsəfəsinə, Azərbaycançılıq ideologiyasına çevrilir. Şair haqqında ilk monoqrafiyanın müəllifi Vaqif Yusiflinin yazdığı kimi: "M.Araz poeziyasında nə varsa, onun özününküdür: şəxsiyyət də, insanilik də, kökə bağlılıq da, ilahiyə inam da, yurddaşlıq da, həzinlik də, sərtlik və çılğınlıq da, haray da,

fəryad da, bir kimsənin yaza bilməyəcəkləri də... Amma unutmayaq ki, bu poeziya səmadan, yerdən, havadan, sudan yarana bilməz, onu ərsəyə gətirən Nizami dağı, Füzuli ümmanı, Sabir nəhri, Ələsgər bulağı, Səməd Vurğun havası, Müşfiq küləyidir" (10, s. 14).

Əslində, başlanğıcda Məmməd Arazın poeziyası Vətən təbiətindən, torpaq duyğusundan, elə "yerdən, havadan, sudan" qüvvət alıb yaranır, yola çıxır, tarixi-mənəvi yaddaş, milli ideyalar, ictimai-siyasi qatlarla zənginləşib, eyni zamanda öz üslub və mövzu-problematikasını, Məmməd Araz dünyasını yaradır. Hələ Məmməd İbrahim imzası ilə çap etdirdiyi "Sevgi nəğməsi" (1959), "Mən səni taparam" (1963) kitablarındakı "Qaranquş", "Səhər-səhər", "Kəklik", "Duman", "Əlvida, dağlar!", "Tütək səsi, ürək səsi" və s. şeirlərində təbiət mənzərələrindən zövq alan, gözəl peyzajlar yaradan, təbiətlə təmas qurub düşüncələrə dalan Vətən şairini görürük. Bu şeirlər şairi "qarşılayan güllər-çiçəklər", "boz biçənəklər", heyrət nidasını "çaylara deyən küləklər"in təcəssümü ilə yanaşı, lap əvvəldən insanlı şeirlərdir:

Bu qoca dağların meri də sənsən,
Şairi də sənsən, şeiri də sənsən.
Varı, bərəkəti, xeyri də sənsən –
Çoban, salamat qal, sağ-salamat qal... ("Əlvida dağlar!", 1962) (8, s. 22).

Məmməd Araz şeirinin poetikasında mühüm yer tutan təbiətin danışması, insanlaşması, Vətən ruhunun ifadəçisi kimi dilə gəlməsi motivləri də ilkin yaradıcılığından özünü göstərir. "Mən Araz şairiyəm" (1961) şeirində Arazdan çox yazdığını irad tutanlara cavabı təbiətlə doğmalaşan, "sahilində küləklər"dən çox gəzdiyi, "sularında ördəklər"dən çox üzdüyü, "Gündüzlər aynam olub, / Gecələr laylam olub. / Qamışından kəsilib/ Mənim çaldığım tütək" (8, s. 4) deyən şairlə birgə Araz çayının özü verir. Çünki şair "Araz deyəndə yalnız çay düşünmür", bütöv bir ağlayan, gülən xalqın tarixini, mədəni keçmişini, doğma ocağın atributlarını – ""Avesta"nın külü"nü, "yanan tariximi", "bir gəlin hörüyü, bir uşaq yuxusu"nu, "Qıratın yalmanı, Bozatın tərliyi"ni, "Nənəmin ipəkliyi, Babamın sərtliyi"ni görür (8, s. 5). Arazdan özünü ayrı təsəvvür etməyən lirik qəhrəman Arazı "mürəkkəb", özünü "qələm" bilməklə Arazla doğmalaşır. Təbiətin insanlaşması kimi, şairin də vətənləşməsi – təbiətin, torpağın, yurdun bir parçasına çevrilməsi baş verir:

O deyir, mən yazıram:
Mən Arazın səsiyəm.
Mən onun yatağıyam,
Mən onun sahiliyəm,
Mən onun ləpəsiyəm.
Dağları yara-yara,
Ən böyük dəryalara
Dildə söz, əldə qələm,
Onunla getməliyəm..." (8, s. 6)

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 162-179*

– deyə Məmməd Araz gələcək yaradıcılığının da başlıca Azərbaycançılıq qayəsini, manifestini bəyan edir.

1960-1980-ci illər poeziyasında istiqlalçı şairlər sovet rejiminə qarşı Azərbaycançı şüarlarını dolayısilə, poetik etirazlar şəklində ifadə edirdilər. Məmməd Araz "Mən Arazın səsiyəm", "Mən Araz şairiyəm" deyə bəyan edir, Bəxtiyar Vahabzadə "Azərbaycan oğluyam" bəyanatını verir, Xəlil Rza Ulutürk "Söylə, Xəlil Rza Azərbaycandır!" deyirdi.

Azərbaycan ruhu, Azərbaycanı vəsf etmək, Azərbaycançılıq əqidəsi Məmməd Arazın, ilk növbədə, təbiət şeirlərindən başlayır. Bu amil şairin bilavasitə bioqrafiyası ilə də bağlıdır. Məmməd Araz ali təhsilini Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Coğrafiya fakültəsində almış, böyük həvəsi və poetik istedadı onu ədəbiyyata gətirmişdir. O da təsadüfi deyil ki, şair uzun illər yaradıcısı olduğu, sanki poeziya ilə təbiətin qovşağında yaranmış "Azərbaycan təbiəti" jurnalının baş redaktoru olmuşdur. Yaşar Qarayev "Yaddaş poeziyası" (1994) məqaləsində yazır: "Hələ yeniyetmə ikən ilk dəfə Arazı və Şahbuzu "Anamın nəğməsi" kimi dinlədi, torpağı və təbiəti "Atamın kitabı" kimi oxudu. Dərslik yox, dağ-daş özü, ekologiya – əlifba kitabı oldu. Lap uşaqlıqdan mehrini və meylini nəbatat elminə saldı, qələmi bir də pöhrə kimi çəməndən, meşədən göyərdi... Poeziyada yeni təbii iqlimin – çağdaş ekoloji təfəkkürün ilk təməl daşlarını qoyanlardan biri Məmməd Araz oldu" (10, s. 3-4).

Məmməd Araz özünəxas, sərt təbiəti olan Naxçıvan torpağında, Şahbuz rayonunun Nurs kəndində doğulmuş, ilk olaraq da vüqarlı dağlar, şiş qayalar, sal daşlar, dağ çayları, nurlu sularla əhatə olunmuş Vətən torpağını Azərbaycanın rəmzi olaraq poeziyaya gətirmişdir. Şair yaradıcılığında mühüm yer tutan ayrıca "Vətən qayaları. Vətən daşları" adlandırdığı silsilə şeirlər yazmış; dağları tərənnüm edən, canlandıran, onlarla dialoqa girib danışdıran, vətənin sorağını alan onlarla: "Dağlara qar düşdü" (1968), "Daş qartal" (Kəlbəcər-Bakı, 1968), "Ağlayan qayalar" (Kəlbəcər, 1968), "İnsan qayalar" (Şuşa, 1970), "Qanadlı qayalar" (Şuşa, 1970), "Dağlar məni tanımadı" (1975), "Salamat qal" (Turşsu, 1976), "Dağlar küsüb" (1976) və s. kimi "təbiət şeirləri" qələmə almışdır.

Akademik İsa Həbibbəyli yazır: "Bizim fikrimizcə, ədəbiyyatşünaslıq nöqteyi-nəzərindən daş Məmməd Araz poeziyasında bütövlük, vətənə, torpağa bağlılıq, gərəkli olmaq, əsl vətəndaşlıq mənalarını ifadə edir. Şair hətta özünü də milli şeirimizin "daş əsgəri" hesab edir" (7, s. 6). Vətənin qayalarını, daşlarını min illərlə burda məskun olan insanlar, igidlər kimi görən, babaları "baş qaldırıb yer altından, / Qaya kimi", "İgidlərin yaşaması daş olmaqla mümkün" təsəvvür edən şair "İnsan qayalar" şeirində "Bu daşların, qayaların / keçmişini oyatmaq", "Ordu-ordu qayalıqların keçmişini qaytarmaq" və "Bu basılmaz nərlər, ərlər/ Bu qaya sərkərdələr" sırasında "bir balaca daş əsgər" olmaq eşqilə alışıb yanır. Şeir seyr və dərin düşüncələrlə müşayiət olunan lirik ovqatdan qəhrəmanlıq pafosunacan yüksəlir

və sonralar minlərlə oxucunun dil əzbəri olan fəlsəfi-aforistik qənaətlə yekunlaşır: "Onda Vətən sanar məni/ bir balaca Vətən daşı, / Vətən daşı olmayandan / olmaz ölkə vətəndaşı..." (3, s. 19).

Məmməd Arazın əksər təbiət şeirlərinin altında göstərdiyi yerin ünvanından da göründüyü kimi, şair doğma elinə-obasına bağlı olduğu qədər Azərbaycanın hər guşəsinə doğma idi. "Budur, uşaqlığım keçən o yerlər, / Çadırdaş ətəyi, Nursu bulağı..." – deyə "Bu yerlər, o yerlər" (1968) (3, s. 21) şeirində doğma ocaqla həsb-hal edən şair, digər şeirlərində "ceyranı azalmış" "Muğanın şikayəti" (1966) (3, s. 23) və "Muğanda Kür nəğməsi"ni (1972) dinləyir, "yol payı gətirən Mil bacım"dan, "bəstəkar qardaşım Kür"dən, "xəzrini vağzala qaçırdan Xəzər"dən xeyir-dua alır ("Sən ötür məni", 1966) (3, s. 25), rəngdən-rəngə düşən "İstisu lövhələri"nin (İstisu, 1968) (3, s. 31), "Kəpəzin dibində burulub yatmış" "Göy göl"ün (1964) (3, s. 48) gözəlliyinə dalır, "payızda yolu düşdüyü Şahbulağ"ın bozluğundan, "zirvənin tox duruşu"ndan ("Yoxdu özgə umacağım", 1975) (3, s. 54) həzz alır.

Məmməd Arazın şeirlərindən Şuşa simvolu, metaforası, peyzajı sanki məxsusi bir vurğu ilə keçir. Şuşanın əsrarəngiz sehri, sirri, işığı "gecənin son qatında", "dünyanın damı"nda "qəndil şəhər"ə bənzətdiyi, "bir ulduz topası kimi göy üzündə" şairi heyran edir:

...Fəzadan asılı, çilçıraq şəhər
Dağlar öz ovcunda yandırıb onu,
Ulduzlar qoynuna qaldırıb onu
Bu dağlar vüqarı, bu dağlar gücü.
Bu gecə kəşf etdim, bir Şuşa bürcü,
Bir Şuşa bürcü,
tamaşa bürcü... ("Şuşada bir gecə", 1970) (3, s. 26).

Məmməd Araz poeziyasının lirik qəhrəmanı Vətən təbiəti ilə nəfəs alır, dərələrdə "dumanlara qoşulub" "Duman ömrü" (1967) (3, s. 30) yaşayır, "bir anda dağ dərəsində özgə bir həyat yaradan" uçqunlara heyran olur ("Uçqun",1966) (3, s. 27), "dağları daşıyan" "Dağ çayı"na (1968), (3, s. 31) dönüb, güc-qüvvət alır, "nərələri, qıyları udub", "gurşad boğazında bir içim su" daşıyan dərələrdə ("Dərə", 1970) (3, s. 50), "ləpəsinin qanadıyla" sal daşlara "dərman yazan" ("Həkim çay", 1968) (3, s. 41) "bu torpaq südü" olan "bir bulaq suyuna əyilir" ("Bulaq daşında yazı", 1972) (3, s. 51), su başlanğıcına tapınır. "Gözünü sıx, / Hansı daşda su yansa, / O daş altda Məmməd Araz yaşayır..." ("Ana yurdum...", 1970) (3, s. 49) – deyə sonunda şairin lirik qəhrəmanı bütünlükdə Vətən təbiəti ilə eyniləşir, bir olur.

"Azərbaycan – dünyam mənim" (1970) şeirində Məmməd Araz artıq Azərbaycançılıq əqidəsini açıq manifestasiya edir. Mövzunun fəlsəfi dərki ilə səciyyəvi olan şeirdə Məmməd Araz poeziyasına xas bütün ideya-məzmun

komponentləri – Vətən sevgisi, Vətən təbiətinə vurğunluq, torpaq-yurd qüruru, tarixi-mədəni yaddaşın oyaqlığı, bütünlükdə Azərbaycan fəxarəti yerini alır. Dolğun məcazlar, bitkin və zəngin rəmzi detallarla sıx, romantik pafosla süslənmiş şeir Məmməd Arazın Azərbaycançılıq konsepsiyasının poetik hüdudlarını görməyə geniş imkan verir. Şeirin lirik qəhrəmanı dünyanı yalnız Azərbaycan gözü, Azərbaycan nəzərləri ilə görür, tərənnüm və təqdim edir:

Azərbaycan – qayalarda
bitən bir çiçək,
Azərbaycan – çiçəklərin içində qaya.
Mənim könlüm bu torpağı
vəsf eləyərək,
Azərbaycan dünyasından
baxar dünyaya (3, s. 37).

Məmməd Araz şeirinin Azərbaycan nidası torpaq fəlsəfəsindən güc alır, ana yurd – ata ocağından pərvazlanır:

Azərbaycan – mayası nur,
qayəsi nur ki...
Hər daşından alov dilli ox ola bilər.
“Azərbaycan!” deyiləndə
ayağa dur ki,
Ana yurdun ürəyinə toxuna bilər (3, s.38).

– deyən şairin “Ana yurd”a səcdəsi motivi bir çox lirik şeirlərindən süzülüb gəlir, xüsusən də 1970-1972-ci illərdə qələmə aldığı “Atamın kitabı” poemasında lirik-epik tərzdə uğurlu bədii ifadəsini tapır. Poemada ricətlər, “etiraflar”la duyğularını bölüşən şair “Parislərdə mövzu gəzməkdənsə”, “bir ata həsrəti yollar”a qayıdışı tərcih edir; “Yen torpaq üstündə torpaqdan danış, / Yen torpaq üstündə özünü danla...” (1, s. 113) deyə torpaq, yurd fəlsəfəsinə tapınır:

Bu torpaq üstündə ömürlük varam,
Əzilsəm, torpağa dağılasıyam.
Nə vaxtsa dikəlib bulud yararam,
Nə vaxtsa göyərib dağ olasıyam... (1, s. 111) – deyir.

Poemanın adında ədəbiyyatda Azərbaycançılıq məfkurəsinin banisi və ardıcıllarından olan Cəlil Məmmədquluzadənin “Anamın kitabı” pyesi ilə səsləşmə təsadüfi deyil. Yaşar Qarayev yazır: “Xüsusən “Atamın kitabı” yalnız sərlövhəsi ilə yox, məzmununun müəyyən məqamları ilə də məşhur bir əsərin adını yadımıza salır.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 162-179*

"Anamım kitabı"nda (Cəlil Məmmədquluzadə) təhlil olunan milli və ictimai ideallar təbii, gur işıq axarı kimi burada, məhz "təbiət" adlanan aynada "sınır" və eyni vaxtda həm tarixdən, həm də təbiətdən "qayıdan" şüa kimi müştərək, qoşa "yaddaş yükü"nü özündə cəm edir: *Mən uca dağlara babam demişəm...*" (10, s. 4).

"Mən uca dağlara babam demişəm,

Ərköyün balayam dağlar yanında..." (1, s. 115) – Vətən torpağının rəmzi kimi səslənən "dağ" başlanğıcı bütünlükdə Məmməd Araz poeziyasında olduğu kimi, poemadan da leytmotiv kimi keçir; "beş milyon ildir dağların əyilmədən tox durduğu", "üç milyon ildir çaylar nəğməsini oxuduğu" torpağın qədim zamanlardan bugünə kimi himnini yazır, məhz dağ vüqarlı insanların müasir həyatına ayna tutur. Poetik fikir və düşüncələrlə yanaşı, poemada yurdun qədimliyini ifadə edən folklor ünsürləri – holavar, əkin-biçinlə bağlı ritualların, mərasimlərin təsviri, adət-ənənə, inanclara dair, ağsaqqal sözü, öyüd-nəsihət, "Tüstüsü düz çıxan ocaqlar", "Su ilə söhbət", "Su üstündə bayatı", "Haşiyələr", "Ucalıq haqqında nağıl" və s. məqamlar poemanın millilik kontekstini şərtləndirir, milli-etnoqrafik aura yaradır. Müasir süjet və hadisələr, məhz bu fonda qabarıq görünür.

İsa Həbibbəyli yazır: "Məmməd Arazın ata ocağı sözün həqiqi mənasında bütöv bir xalqı və böyük bir vətəni təmsil edən ümumiləşmiş Azərbaycan ocağıdır... Xalq şairinin yaradıcılığında qırx ildən artıq çağlamaqda davam edən Azərbaycan ruhu, bənzərsiz Vətən duyğusu və milli ideyalar həqiqi və geniş mənada öz odunu-qorunu təmiz, müqəddəs "ata ocağı"ndan – Vətəndən alır" (7, s. 4-5). Məmməd Arazın doğma ocağa, kəndinə, valideynlərinə, yaxınlarına həsr etdiyi bir çox şeirləri – "Əlivida, dağlar" (1962), "Anamdan yadigar nəğmələr" (1965) silsiləsi, "Babamın səsi" (1966), "Ata ocağı" (1969), "El üçün ağlayan..." (1969), "Arpaçay nəğməsi" (1973), "Kəndim, balacasan, çox balacasan" (1980) və s. nümunələr şairin ömür yoluna aydın işıq salır.

"Atamın kitabı" poemasını M.Araz "Atam İnfil İbrahimova həsr edirəm" ithafı ilə qələmə almışdır. Poemada şairin uşaqlığı, kənd həyatı, dünən və bu günlə bağlı xoş xatirələri, həsrət, nisgil notları ilə yanaşı, daha acı həqiqətlər də – günahsız repressiya olunmuş, sonra bəraət almış, mərd, sözündən dönməz, başıuca, iradəli, başqasına böhtan atmayıb sürgün olunmuş atasının əhvalatı da, müdrik qocalar – babasının, nənəsinin, anasının unudulmaz portret çizgiləri, dağlara bənzər kişilərin – Abbas kişi, Camal kişi, kolxoz sədrinin işıqlı obrazları, "O yerlər"in, o zamanların halal həyatı da təsvir olunur. Xalq şairi Rəsul Rza "Duyğuların izi ilə" məqaləsində yazır: "Atamın kitabı" poeması həm də yaddaqalan, koloritli, orijinal xarakterlər yaratmaq baxımından diqqət cəlb edir. Həyat hadisələrini bilmək azdır. Onu poeziya predmeti etməyi bacarmaq lazımdır. "Atamın kitabı" poeması buna uğurlu bir misal ola bilər" (9, s. 241).

Poemanın "İntervü" adlı epizodunda müəllif müasir oxucunu torpaq yaddaşı ilə ayıltmağa çalışır:

Çoxdu indi savadlılar, çox, maşallah,
Qəzet-kitab oxumaqla dağ aşarlar...
Hərdən gəlib bu torpağı öpün, bala.
Kitablara bir az torpaq səpin, bala... (1, s. 162). Məcazdan istifadə edən şair müasirlərini torpaq əxlaqı ilə silkələyir; Təbiət kitabı, Torpaq kitabının ardınca tarixi qədimlərə gedən Vətən kitabını vərəqləməyə çağırır. Poemanın əvvəlində bu əqidə ilə yola çıxan müəllif "Bu torpaq üstündə bitən Nizami / Bəşərin ən uca fikir dağıdır..." deyə, dağ ucalığı ilə birgə, bu torpağın yetirdiyi ən ümdə mənəvi ucalığa səsləyir:

Sən də bax, ey ağzı köpüklü "çılğın",
Dünən də barlıydı bu bağça, bu bağ.
Qapıb ünvanlara qəfil atdığın
O daşın əyil bir yazısına bax... (1, s. 112).

Məmməd Arazın Azərbaycançılıq təlimində Azərbaycan xalqının mədəni-mənəvi varlığı Vətən coğrafiyası, Vətən tarixi qədər zəngin, dəyərli və özünə bərabərdir. "Azərbaycan – dünyam mənim" şeirində rəmzi detallar, metaforalarla xalqın mənəvi siması, keşməkeşli qəhrəmanlıq tarixini təbiət-cəmiyyət-mədəniyyət-mənəviyyat paralelizmi üzrə üzvi vəhdətdə tərənnüm edən şair əbəs deyil ki, Füzuli və Azərbaycan adlarını mətnin əvvəlində və sonunda bir-birinə tən səsləndirir:

Azərbaycan – mayası nur,
                    qayəsi nur ki...
Hər daşından alov dilli ox ola bilər.
"Azərbaycan!" deyiləndə
                    ayağa dur ki,
Füzulinin ürəyinə toxuna bilər (3, s.38).

Şairin və şeirin fəxarət dolu romantik nəfəsində bu o Azərbaycandır ki, "Oğulları Kür gəzdirir biləklərində", "Sərhədlərdə dayanmışıq küləkdən ayıq", "İllər olub – kürrələrdə dəmir olmuşuq". Bu o xalqdır ki, tarixinə yazılan "qara xətli hicri, miladi"ni "qılıncların qan ağzı"ndan qurtarıb, "Azərbaycan qatarı"nı dünyaya çıxarır: "Azərbaycan qatarı da yollara çıxdı/ Dağılanda Qoca Şərqin duman dünyası..." (3, s. 38).

Tarixə müraciət Məmməd Araz poeziyasında sadəcə yaddaş fəlsəfəsi kimi, mədəni irsin tərənnümü və təcəssümü kimi təzahür etmir; bilavasitə bugündən doğulur, müasir problemlərin həlli kimi aktuallaşır. "Məndən ötdü, qardaşıma dəydi" (1967), "Bir dövlətəm" (1969), "Babəkin qılıncı" (1970), "Yerlər" (1971), "Tarixçi alimə" (1983) və s. şeirlərində milli-mənəvi varlığa, dəyərlərə, tarixi keçmişə dönüklük, biganəlik, yadlaşma ilə üzləşən şairin duyğuları kükrəyir, düşüncələri dilə gəlir, poetik ilhamı danışır və tarixi danışdırır:

Ey daşlaşan, torpaqlaşan
ulu babam,
Bu günümdən dünənimə uzaqlaşan
ulu babam,
Küləkləşən, dumanlaşan ruhunla sən
Ayağa dur, səninləyəm!
Səs getməyən,
əl yetməyən
Qədim tarix dərəsindən
Səs ver mənim səsimə sən... (3, s. 76).

Şair B.Vahabzadəyə ithafla, nəzirə kimi yazdığı "Məndən ötdü, qardaşıma dəydi" (1967) şeirində xalq arasında yabançı əxlaqa yol açan "Məndən ötdü, qardaşıma dəydi" deyiminə qarşı çıxaraq ulu babaların ruhunu mühakiməyə çağırır. Dastan qəhrəmanları – Qara Çoban, Dəli Domrul, Xan Eyvaz, Giziroğlu Mustafabəydən yaxın tarixin faciəvi qəhrəmanlarınacan cavab istəyir: "Məndən ötdü.../ Bunu dedi Şəki xanı/ Bunu dedi Bakı xanı/ Bunu dedi: İbrahim xan, / Fətəli xan, Kəlbəli xan.../ Qəza ötsün, məndən, - dedi/ Ötən kimi, "mən-mən" dedi;/ "Mən-mən" dedi bir ölkədə/ nə qədər xan./ Onlar "mən-mən" deyən yerdə/ Sən olmadın, Azərbaycan!" (3, s. 78-79) Böyük mənəvi etirazla yekunlaşan tarixi düşüncələr Məmməd Arazın açıq vətəndaşlıq mövqeyini ehtiva və bəyan edirdi:

Səndən ötən mənə dəydi,
Məndən ötən sənə dəydi.
Səndən, məndən ötən zərbə
Vətən, vətən sənə dəydi" (3, s. 79)

"Babək qılıncı" balladası da qəfil bir hadisədən, "bir alim dilindən qopan" xəbərin "hövlnak daş qərinələri oyandır"masından təkan alır. Vaqif Yusifli yazır: "Təbii ki, Məmməd Arazın Vətən tarixi ilə bağlı şeirləri, poemaları publisistik pafosdan xali deyil. Lakin burada tarixi hadisələrə, olaylara təkcə publisist və şair baxışı azlıq edir, VƏTƏNDAŞ və XALQSEVƏR kimi qiymət vermək lazımdır. "Deyirlər tapılıb Babək qılıncı!" "Babək qılıncı" balladasının bu şah misrası oxucunu fikrən hərəkətə gətirir, tarixin bir amansız həqiqəti ilə üz-üzə qoyur. Əgər Babək qılıncı tapılıbsa, bu, bir xalqın tarixində neçə qaranlıq səhifənin üzərindən qara örtüyü götürəcəkdir" (10, s. 97). Şeir bütövlükdə bu motiv ətrafında tarixin qatlarına enərək, milləti oyandırmağa, hadisədən sevinc, "muştuluq", "bayram" ovqatı yaratmağa, hünər, ağıl, cəsarət üzərində birləşdirməyə, "yalan olsa da doğrulmalı" bu

 ISSN 2224-9257

silahla – "Babək qılıncıyla" "Babək heykəlinə Babəkin adını yazıb" onu simvollaşdırmağa yönəlir.

Məmməd Araz şeirindən xalqın qəhrəmanlıq tarixi kimi, ədəbiyyat, söz adamlarının da obrazı, irsi, dəyərləri ayrılmaz bir xətt kimi keçir. "Nizaminin fikir dağı" (1, s. 112), "Füzulinin ürəyi" (3, s. 38), "Xətayinin qılıncı" (4, s. 171), "Xaqani, Nəsimi zərrəsi" (3, s. 104), "Nəsimi, Nəimi məzarınacan" (1, s. 19), "O Vaqifdi - odasına od düşən, O Zakirdi - sədasına od düşən" (4, s. 205), "Sabirlərin ümman dünyası" (3, s. 38), "Aşıq Ələsgər yüksəkliyi", "Müşfiq küləyi, Əli Kərim qasırğası" (1, s. 37), "Nazimin qəbri... Nazimin qəlbi..." (3, s. 32), "Vurğun şeiriyyəti, Vurğun torpağı"... (4, s. 27) – rəmzlər, metaforalar, obrazlar, assosiasiyalar, meditasiyalar sırasında "Nizamidən Vurğunacan yol gəlib" (3, s. 124) Məmməd Arazın Azərbaycan dünyasında fəal yer alır, onu yaradır. "Azəri nəğməsi" (1968) şeirində şairin özünün vəsf etdiyi kimi:

Məndən soruşanda: – Sən kimsən? – onda
Nəsimi oluram alov donunda.
Bəzən üfüq adlı bir Nizamiyəm,
Demək, mən xilqətəm, demək, hamıyam.
Bəzən Füzuliyəm,
– Bir planetəm.
Bəzən bir ulduzam,
Bəzən kometəm...
Sabirəm, Üzeyirəm, Bülbüləm, kiməm...
Azəri nəğməsi, bilmirəm kiməm,
Nəçiyəm mən sənsiz, nəyə qayiləm... (4, s. 79).

Məmməd Arazın M.Ə.Sabirə həsr etdiyi ayrıca "Mən də insan oldum" poeması, "Böyük Mirzə Cəlilə" "Dünya düzəlmir" (1990), "Böyük Cavid"ə "Bu şeytanlar" (1991), ustadı bildiyi "Səməd Vurğuna" (1956), "Səməd Vurğunla söhbət" (1966), Ustad Şəhriyara "Şəhriyar gəlmədi" (1967), "Qalır hələ" (1987), R.Rza haqqında "Gəlmədi Rəsul" (1982) şeirləri, klassiklərə və müasirlərinə onlarla ithafları: Əli Kərimin xatirəsinə ("Bir il"), Ə.Kürçaylının xatirəsinə ("Kür üstündə tək ağac"), Bəxtiyar Vahabzadəyə ("Məndən ötdü, qardaşıma dəydi"; "Vəzifə, insan"), Musa Yaquba ("Dağlara çağırış"; "Göyərdi"), Söhrab Tahirə ("Araz yadıma düşüb"), Əli Tudəyə ("Bir şair küsüb"), "Məmməd Aslana", Cabir Novruza ("Mövzularım tükənəndə"; "Sağlığımda"), Tofiq Bayrama ("Günəşlə oynayan uşaq"), Tofiq Mahmuda ("Dalğasındıran qaya"), Vaqif Bəhmənliyə ("Daş harayı"), Hikmət Ziyaya ("Biz olmayanlar") və s. – konkret mövzu-problematika ətrafında xalq qayğısı, millət yanğısı, Azərbaycan harayı ilə süslənmiş örnəklər, əsl vətəndaşlıq lirikası nümunələridir.

Klassiklərdən aldığı vətəndaşlıq dərsini Məmməd Araz yaradıcılığında başlıca Azərbaycançılıq qayəsinə çevirir. "Şair vüqarı" (1966) şeirində "Qələmim, özünü çəkmə kölgəyə, / Sən də cavabdehsən bu səhvlər üçün..." deyə qələmə sarılan şairə görə: "Vüqarla yaşamış söz babaları,/ Onu yaşatmasın, şerimiz niyə?/ Əyilməz doğulan şair vüqarı/ Yalnız baş əyibdir əyilməzliyə..." (4, s. 56) – devizi hər bir sənətkarın yaradıcılıq kredosu olmalıdır. Şairi "əyməy"in bir yolu varsa, o da "əlindən xalqının alqışını al"maqdır düşünən Məmməd Araz daim "Vətənə oğul olmaq" əqidəsi ilə yaşamış-yaratmışdır:

Vətən mənə oğul desə nə dərdim,
Mamır olub qayasında bitərdim.
Bu torpaqsız harda, nə vaxt, nə dərdim
Xəzanımdır, xəzanımdır, xəzanım... ("Vətən mənə oğul desə", 1970) (4, s.133)

Məmməd Araz poeziyası yaradıcılığı boyu, həmişə vətəndaşlıq missiyası daşımışdır. Vətən təbiətini vəsf edəndə də, doğma yurd-torpaq sevgisi ilə alışıb-yananda da, tarixi-mədəni yaddaşa üz tutanda da lirik qəhrəmanının özünü bu "mənəvi yük" altında hiss və dərk etdiyini, bu amaldan, əqidədən ilham və vəcd duyduğunu görürük. Şərəfli Vətən borcunu, vətəndaşlıq ilhamını "Ömür karvanının sənət yükünə / Bir-iki qeyrətli söz yükləmək"də görən şair dünyaşöhrətli alim Xudu Məmmədova yazdığı şeirdə həmin missiyanı fəlsəfi-metaforik tərzdə təbiət-tarix-zaman-kainat pillələrindən keçirərək ümumiləşdirir:

Keçək dərələrin boğanağından,
Keçək dolayların doğanağından,
Günəşin zirvədə doğan anından,
Nur alıb, bu yurda səpələnməsək
Sən kimə gərəksən,
Mən kimə gərək?! ("İlhamım", 1977) (3, s. 60)

Məmməd Arazın vətəndaşlıq lirikasında mərkəzi yeri təxəllüsünü götürdüyü Araz mövzusu tutur. Bu, yuxarıda qeyd olunduğu kimi, həm də şairin Azərbaycançılıq məsləyi və əqidəsinin də cövhərini təşkil edir. Yaradıcılığının ilkin çağından: "Mən Araz şairiyəm" (1961) deyən Məmməd Arazın poeziyasında təkcə elə birbaşa sərlövhəyə çıxardığı onlarla Araz mövzusunda şeirləri yer alır. "Araz axır" (1959-1960) poeması, "Araz yadıma düşüb" (1960), "Bu gecə yuxumda Arazı gördüm, "Yenə Arazı gördüm" (1962), "Araz üstə çinar gördüm" (1967), "Arazın işıqları" (1968), "Araz dili" şeirlərində M.Araz, məhz oxucusuna bəlli eyhamlarla – "Araz dili"ndə danışır: "Eyham toru tullayanda Araza/ Hörmət səddi tapdanmasın arada./ Mən neçə yol danışmışam Arazla..." ("Araz dili", 1985) (5, s. 28)

Belə ki, Cənub mövzusu Məmməd Araz yaradıcılığının başlıca hədəfi, predmetidir. Bilavasitə "Araz şeirləri"ndən başqa, "ikiyə bölünmüş Vətən" motivi, Azərbaycanın bütövlüyü ideyası şairin bir çox şeirlərindən keçir. "Oxuyan Təbriz" (1969-1970), "Qonşu çəpəri" (1981), "Saç ağartdım" (1986), "Möhtac oldum" (1986), "Böyüklər, uşaqlar" (1986), "Əgər son nəğməmi oxuya bilsəm" (1989) və s. nümunələr Məmməd Arazın Vətən deyəndə daima bütövlükdə Azərbaycanı nəzərdə tutduğunu, bütöv Azərbaycan ağrısı, nisgili, eyni zamanda İdealı ilə yazıb-yaratdığını göstərir:

Axşamdan səhərə yetdiyim kimi,
Əgər min arzumdan birinə yetsəm,
Əgər Naxçıvana getdiyim kimi,
Ərdəbilə getsəm, Təbrizə getsəm... ("Əgər son nəğməmi oxuya bilsəm", 1989) (1, s. 94) – deyir.

Cənub ağrısı Məmməd Araz poeziyasında mübariz mövqedən qoyulur, reallığı əks etdirməklə yanaşı, reallıqla barışmayan millət ruhunu ifadə edir:

Mən Təbrizli, Naxçıvanlı, mən Gəncəliyəm,
Çox görmüşəm hasar üstdə ölənləri də.
Mən torpağı bölünməyə öyrəncəliyəm,
Heç qazanan görməmişəm bölənləri də... ("Qonşu çəpəri", 1981) (3, s. 71)

Bu qayə ilə şair Məmməd İbrahim imzasını da Məmməd Araza dəyişir.

Mən sənə bir şair,
Sən mənə "Araz" de.
Elə bil nə mənsiz sən Araz,
Nə sənsiz mən şair olmazdım ("Yenə Arazı gördüm", 1962) (4, s. 72).

Vaqif Yusifli yazır: "Uzun illər şeirimizdən "günahkar" bir çay axırdı və o çay az qala milli faciəmizin səbəbkarına çevrilmişdi. Belə bir vaxtda Məmməd İbrahim kimi tanıdığımız şair özünə Araz təxəllüsünü götürdü və Arazlı şeirləri ilə Arazı yalançı sızıltılardan xilas etmək istədi. Məmməd Araz bu dərdin, bu ağrının fövqündə dayanan milli faciələrimizi şeirlərinin mövzusuna çevirdi" (10, s. 13).

Bir xalqın ikiyə bölünməsi faciəsi də, 1941-1945-ci illərdə Cənubda baş verən hadisələr və Azərbaycan Demokratik Respublikasının acı taleyi də Məmməd Araza yaxşı tanış idi. Şair Cənubi Azərbaycanla sərhəddə yerləşən Naxçıvanda doğulub, boya-başa çatdığından Araz onun üçün yalnız sakit axan, İran Azərbaycanı ilə sovet Azərbaycanı arasında sərhədləri bölən bir çay deyildi. Cənub mövzusunun ictimai-siyasi xarakter daşıması, 1950-ci illərdə az qala qeyri-rəsmi şəkildə qadağa altında olması da Məmməd Araza yaxşı bəlli idi. Buna görə də belə bir addım atması, təxəllüsünü dəyişməsi şairin böyük cəsarətindən xəbər verirdi.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 162-179*

Ulu öndər Heydər Əliyev istiqlalçı şairlərin sovet dönəmindəki fəaliyyətini əsl qəhrəmanlıq nümunəsi hesab edir: "Doğrudur, bəzən bu yazılarınıza görə siz sıxılmısınız da, təqib olunmusunuz da, sizi incidiblər də, sizə kəm baxıblar da, sizi açıq və ya gizli tənqid də eləyiblər. Ancaq mənə belə gəlir ki, Məmməd Arazın, Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın qəhrəmanlığı (mən bu sözü tam cəsarətlə deyirəm) elə ondan ibarətdir ki, onları heç bir şey qorxutmayıbdır. Onların qarşısını heç bir şey kəsməyibdir. Onlar öz işlərini görüblər. Xırda-xırda, çox incə, çox zərif görüblər və məhz bu incəliyə, zərifliyə, nazikliyə görə də sizin bu fikirləriniz bizim vətənpərvər insanlarımızın, xalqımızın ürəyinə yol tapıbdır" (6, s. 185).

"Araz axır" poemasını Məmməd Araz Cənub hadisələrinin ağrısı hələ soyumamış, 1959-1960-cı illərdə qələmə almışdır. İkiyə bölünmüş bir xalqın faciəsini məhəbbət süjeti vasitəsilə, "ayıran" sərhədlərə qarşı "birləşdirən" könülləri qoymaqla təcəssüm etdirir: "Bəşər yaranan gündən/ Məhəbbət yaranıbdır./ Ancaq dünən, lap dünən/ Bu sərhəd yaranıbdır./ Bəşər yenə olacaq,/ Məhəbbət olacaqdır./ Sərhədsə qalsa yalnız/ Lüğətdə qalacaqdır..." (2, s. 143).

Qəhrəmanın dilindən söylənən poemada maraqlı, düşündürücü və faciəvi bir əhvalatdan söhbət gedir. Şimalda yaşayan qəhrəman 1941-ci ildə sovet qoşunlarının tərkibində Cənuba, Vətəni qorumağa gedir. Burda Ayrıgül adlı bir cənublu qızla eşq yaşayan gənc tezliklə ondan ayrılmalı olur. Bu dəfə sovet ordusunda Qərb cəbhəsində vuruşub, bütün Avropanı azad edirsə də sevgilisini unutmur. Müharibədən sonra onun "bizim səmtə bir böcək, bir quş uça bilməyən" sərhədi keçmək cəhdini sərhədçi əsgərlər gülüşlə qarşılayır, hətta onu "dəli" bilirlər. Qarşılıqlı sevginin əzabları əsərdə dramatik, psixoloji sarsıntılarla, real təsvir olunur. Kommunisti sevdiyinə, "şübhəli məktublar" aldığına görə Ayrıgülü incidirlərsə də, sevgisindən dönmür. Lakin sonuncu məktubunda Təbrizdən sürgün olunduğunu yazır, evlənməyi, qızı olarsa, adını İradə qoymağı diləyir; çünki dəyişib özünün də İradə olacağını vəd edir. Müharibədən sonra ali məktəbdə təhsil alan qəhrəman tikinti mühəndisi olur, ailələrin xoşbəxtliyi üçün evlər tikirsə də, sevgisinə xəyanət etməyib, evlənə, xoşbəxt ola bilmir.

Bu zaman qəhrəmanın üsyankarlığı, gerçəklərlə barışmaması şairə əsl həqiqətlərdən danışmağa, eyhamlarla oxucunu gizli mətləblərdən hali etməyə imkan verir. Qəhrəman iş yerini Arazın sahilinə dəyişir; "Təsəllim də olacaq:/ Baxacağam, Araza – / O dağlar yaran çaya./ Altdan birləşən yeri/ Üstdən ayıran çaya..." (2, s. 161) – deyir. Arzusu sanki "Elə evlər tikmək... Aya, Marsa daş pillələr çəkmək", "Ordan o taya... Təbrizə..." baxa bilməkdir, istəyi xəyalən də olsa, "zindan küncündə solan ayna bir üzə..." qovuşmaqdır. Bu bir metaforik deyimdir. Qəhrəmanın dili ilə:

Baxam lap dərinlərə,
Baxam lap uzaqlara;
O yurdu satanlara,

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 162-179*

O yurdu udanlara... – deyən şair faciənin kökünü tarixin uzaqlarında axtardığı kimi, Azərbaycan xalqının bütövləşməsinin çox da uzaqda olmadığına da inanır:

Araz çay deyil yalnız;
Araz neçə milyonluq
İnsanlardır, eldir o.
Göy kişnədən gurşaddır,
Dağ yıxacaq seldir o,
O axır, qabağına
Bənd də çəksən axacaq.
O axır, dağlar yarıb,
Məcrasını tapacaq" (2, s. 161).

İki Azərbaycanın bir olduğuna, birləşəcəyinə Məmməd Araz həmişə inanır, şeirlərində bu yuxularda ("Bu gecə yuxumda Arazı gördüm"), arzu və xəyallarda ("Yenə Arazı gördüm", "Araz üstə çinar gördüm") real mənzərələr kimi canlanır. "Arazın işıqları" (1968) şeirində Araz üstə hər iki sahildəki işıqlar həm real planda, həm də metaforik Vətənin bölünməzliyindən söz açır. Yol gedən dəvəyə bənzətdiyi Arazın dili ilə şair oxucusuna vacib mesajlar ötürür: "Deyirəm ki, asta yeri,/ dəvə qardaş, asta yeri,/ Dağıdarsan nur yükünü,/ yortsan əgər. / Aclığın var, boynunu bir/ çölə döndər. / Dəmir tikan qırpmaq öyrən, / dəmir tikan. / Dəmir tikan qırmaq öyrən, / dəmir tikan..." (4, s. 92) İşıq karvanının izi ilə gedən şair əmindir ki, vaxt gələcək, bir olan vətəndə "İki sahil: / İşıqlarla ayrılacaq, / İşıqlarla görüşəcək..." (4, s. 93).

Xəyallarında bəslədiyi, inandığı və şeirlərində inandırdığı "sərhədsiz Azərbaycan" ideyasının gerçəkliyini ani də olsa Məmməd Araza görmək qismət olur. 1992-ci ildə "Dostum Cəfərə" ithaf etdiyi "Sərhəd çəpərləri" şeirində böyük heyrət hissi ilə şair inamının təntənəsini qeyd və vəsf edir: "Sərhəd çəpərləri sökülür, Allah! / Bu necə yuxudur/ Bu necə haqdı. / Zaman öz hökmünü qandallayacaq, / Tarix öz yoluna qayıdacaqdı..." (5, s. 138).

Yaşar Qarayev göstərir ki, Məmməd Araz şeirinin "bioloji gücü" "hələ Məmməd İbrahim imzası ilə nəşr etdirdiyi şeirlərdə" görünür, "Lakin bu duru poeziya bulağının daha gurşad və bol axara – Araza çevrildiyi ərəfə – "Məmməd Araz" dövrü isə yetmişinci illərin lap əvvəlindən başlayır" (10, s. 4). Belə ki, bu dövrdə Məmməd Araz poeziyasında azərbaycançılıq əqidəsi özünəxas şəkildə tam reallaşmış, fəlsəfi təlim halına gəlmişdir. Bu poeziya oxucunu təbiət, torpaq, yurd sevgisi, tarix-mədəniyyət, mənəvi yaddaşla silahlandırıb, ona vətəndaşlıq dərsi öyrədir. Məmməd Araz şeiri fəlsəfi mahiyyəti, aforistik gücü ilə beyinləri və qəlbləri ələ alıb, dillərə düşür: "Xətayinin qılıncını suvardım,/ Məmməd Araz karandaşı göyərdi"; "Vətən daşı olmayandan / olmaz ölkə vətəndaşı"; "Vətən mənə oğul desə nə dərdim,/ Mamır olub qayasında bitərdim"; "Səndən, məndən ötən zərbə / Vətən,

vətən sənə dəydi"; "Qərib ürəyində bir səs uyuyur: / Vətən unudulmur, Vətən unutmur..."; "Bir ocaq başında bir isinməsək / Sən kimə gərəksən, / Mən kimə gərək?!"; "Söz verdim, söz adlı dəfinə verə, / Tək bircə ölümsüz qərinə verə. / Umdum nə verdi ki, küsdüm nə verə? / Mən belə dünyanın nəyindən küsüm?"; "Qəfil qəza yıxmaz məni, yıxılsam, / Ana yurdum, ağuşuna tələsdim"; "Gözünü sıx, / Hansı daşda su yansa, / O daş altda Məmməd Araz yaşayır..." - və s. aforistik ifadələr şairin fəlsəfi lirikasından süzülüb beyinlərə axır, geniş kütləni vətənçilik ruhu ilə aşılayırdı.

Məmməd Araz poeziyası Azərbaycan oxucusunu 1990-cı illərin müstəqillik savaşına, Vətən imtahanına hazırlayan poeziya olmuşdur. 1980-ci illərin sonlarından erməni qəsbkarlarının Qarabağla bağlı məkrli planları işə düşüb, ölkənin üstünü qara buludlar alarkən, bu savaşa hazır olan Məmməd Araz şeiri ilə yanaşı, şairin Vətən uğrunda savaşa, birliyə, mübarizəyə səsləyən yeni silsilə şeirləri yaranır.

"Amandı, qoruyun birliyinizi!.." ("Yaxşılar", 1989) (5, s. 86) deyən şairin "Güzəşt" (1990), "Zamana aldanan böyük yazığa" (1991) , "İbrət – nifrət muzeyi", "Yolçu, yolun haradi?" (1991), "Ya rəbbim, bu dünya sən quran deyil" (1991) və s. şeirlərində tarixi yaddaşa çağırış; "Millət yolu – haqqın yolu,/ Ucal, millət bayrağı./ Vətən andı xalqın yolu,/ Yaşa, Vətən torpağı..." ("Nəğmə") (5, s. 106) – deyə, "Bizi vətən çağırır!" (1992), , "Dilənçi qaçqın" (1992), "Nişançı özümüz, hədəf özümüz" (1992), "Ay allah" (1992), "Əsgər oğul" (1993), "Murova qar yağırdı" (1994), "Ulu şahım, qılıncına söykənim!" (1994) və s. şeirlərində müqəddəs savaşa çağırış motivləri bilavasitə zamanın ruhunu ifadə edirdi.

"Ata millət, ana millət, ağlama" şeirində Məmməd Araz şeirinin fəlsəfi gücü ağır sınaqlardan keçən milləti nikbinliyə kökləyir: "Bu döyüşdü – əzilən var, əzən var, / Ölüm hökmü qolluğunda gəzən var; / Burda "bizik", nə "mən" vardır, nə "sən" var. / Yox, ağlama, ana millət, ağlama! / Qorxuram ki, sına millət, ağlama" (1992) (5, s. 125), eyni zamanda şeirin publisistik pafosu birliyə səfərbər edirdi.

Bu illərdə Məmməd Arazın qələmə aldığı "Ayağa dur, Azərbaycan!" (1992) şeiri nəinki çətin imtahan qarşısında qalan xalqı ayağa qaldırır; müstəqilliyini qazanmış millətin Qarabağ savaşında, beynəlxalq aləmdə təklənmiş Azərbaycanın şər qüvvələrə qalib gəlib öz müstəqilliyini qorumasında əsl istiqlal marşına çevrilir:

Nə yatmısan, qoca vulkan, səninləyəm!
Ayağa dur, Azərbaycan, səninləyəm!
Səndən qeyri
biz hər şeyi bölə billik!..
Səndən ötrü
biz hamımız ölə billik!" (1, s. 132)

– deyən şair romantik-vətənpərvər nəfəsdə millətin tarixi yaddaşına enib, onu özünə-əslinə, bu günvarlığına qaytarır:

Səninləyəm, haqq-ədalət, səninləyəm,
Milli qürur, milli qeyrət, səninləyəm!
Səpil quma, göyər yerdə, bit qayada,
Gizli nifrət, açıq nifrət, səninləyəm,
Oyat bizi, ey yaradan, səninləyəm!... (5, s. 133)

## NƏTİCƏ

Azərbaycan xalqının fəlsəfi ruhunu, qədim mədəniyyəti və bu gün varlığını ifadə edən Məmməd Araz şeiri milli ruhu, Azərbaycan idealı, Azərbaycançılıq qayəsi ilə könüllərə sitayət etmiş, Azərbaycan insanının dünyabaxışının, vətəndaşlıq mövqeyinin formalaşmasında bilavasitə iştirak etmiş, 1990-cı illərdə milli istiqlalın qazanılmasında fəal rol oynamışdır. Ulu Öndər Heydər Əliyev Məmməd Arazın yaradıcılıq gecəsində bu tarixi missiyanı xüsusi vurğulayaraq deyir: "...Sizin keçmişdə olan bütün o əzab-əziyyətləriniz, zəhmətlər hədər getməyib, öz nəticəsini veribdir. Nəticə odur ki, Azərbaycan öz müstəqilliyini əldə edibdir, milli azadlığına nail olubdur, Azərbaycan müstəqil dövlətdir" (6, s. 185). Azərbaycan Respublikasının "İstiqlal" ordeninə ilk layiq görülənlər sırasında Məmməd Arazın da yer alması şairin poeziyasına verilən yüksək dəyərin ifadəsidir.

## ƏDƏBİYYAT

1. Araz, M. Atamın kitabı. – Bakı: Gənclik, – 1974. – 168 s.
2. Araz, M. Aylarım, illərim. Şeirlər, poemalar. – Bakı: Yazıçı, – 1979. – 224 s.
3. Araz, M. Dünya sənin, dünya mənim. – Bakı: Yazıçı, – 1989. – 310 s.
4. Araz, M. Seçilmiş əsərləri: [2 cilddə] / M.Araz. – Bakı: Lider nəşriyyat, – c. 1. – 2004. – 224 s.
5. Araz, M. Seçilmiş əsərləri: [2 cilddə] / M.Araz. – Bakı: Lider nəşriyyat, – c. 2. – 2004. – 232 s.
6. Əliyev, H.Ə. Müdriklik mücəssiməsi (Məruzələr, çıxışlar, görüşlər, müsahibələr). – Bakı: Elm, – 2023. – 512 s.
7. Həbibbəyli, İ.Ə. Xalq şairi Məmməd Araz. Albom-monoqrafiya. – Bakı: Azərbaycan nəşriyyatı, – 1999. – 160 s.
8. İbrahim, M.İ. Mən səni taparam. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1963. – 60 s.
9. Rza, R. Seçilmiş əsərləri: [5 cilddə] / R.Rza. – Bakı: Öndər nəşriyyatı, – c. 5. – 2004. – 264 s.
10. Yusifli, V. Məmməd Araz dünyası (Həyatı və yaradıcılığı). – Bakı: Elm və təhsil, – 2024. – 218 s.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 162-179*

**САБУХИ ГАХРАМАНОВ**

# ФИЛОСОФИЯ АЗЕРБАЙДЖАНИЗМА В ПОЭЗИИ МАМЕДА АРАЗА

## Резюме

Одним из поэтов, воплощающих в своем творчестве идеологию азербайджанизма, является Мамед Араз. Взгляды и идея азербайджанизма, заложенные в основе поэзии Мамеда Араза, целиком и полностью по нарастающей линии приобретают в его творчестве концептуальность. Исходящие от любви к Родине, влюбленности в свою отчизну – чувства поэта преобразуются в безукоризненную программу и контент, выражающий азербайджанскую идею. Сущность поэзии Мамеда Араза заключается в философии азербайджанизма. В его творчестве философия Родины – природа, земля, история (историко-культурная память), зарядившись энергией от человеческого начала, органично вплетается в символику Араза, преобразуясь в философию Азербайджана и идеологию азербайджанства. В советский период он был из тех поэтов, кто открыто провозгласил манифестацию идей азербайджанства. В учении азербайджанства Мамеда Араза культурно-духовное наследие азербайджанского народа по глубине и богатству равноценно истории и географии своей Родины. В его стихах история героизма народа неразрывной линией переплетается с образами литераторов, их наследием и ценностями. Полученный от классиков литературы урок гражданства в своей основе претворяется в его творчестве в стремлении к азербайджанизму. Одним из важнейших атрибутов поэзии М.Араза является гражданская миссия и теме Араза, взятого им в качестве псевдонима, в гражданской лирике поэта отводится основное место. Южная тематика приоритетна для творчества Мамеда Араза, является основной целью и предметом. Помимо того мотив «разделенной родины», идея объединения Азербайджана непосредственно проходит сквозь многие произведения поэта.

Боль за Южный Азербайджан в поэзии Мамеда Араза ощущается с позиции противоборства. Наряду с отражением действительности он выражает непримиримость духа нации с существующими реалиями. Мамед Араз всегда верил в объединение Азербайджана в единое целое, оживляя это в своих стихах как реальные картины в мечтаниях, грезах и снах. Поэзия Мамеда Араза преподает своему читателю урок гражданственности, вооружив его духовной культурой и исторической памятью, любовью к своему отечеству, земле, природе. Философская сущность его поэзии своими афористическими изречениями овладела умом и сердцем людей. Поэзия Мамеда Араза стала поэзией, подготовившей своего читателя к экзамену за Родину, борьбе за независимость в 1990-е годы.

**Ключевые слова:** *поэзия Мамеда Араза, идея азербайджанизма, стихи о природе, любовь к родной земле, поэты-борцы за независимость, философская лирика, афоризмы*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 162-179*

**SABUHI GAHRAMANOV**

## PHILOSOPHY OF AZERBAIJANISM IN MAMMAD ARAZ'S POETRY

**Summary**

One of the poets who embodied the ideology of Azerbaijanism in his activity is Mammad Araz. The ideas and views about Azerbaijanism are on the base of his poems and throughout his activity he continues in a rising line, acquiring a whole and complete conceptuality. The poet's feelings, starting with love for the native land, are transformed into a perfect program and content that expresses the ideal of Azerbaijan. In his poetry Azerbaijanism is philosophical in nature. In the poet's activity the philosophy of the native land – nature, land, history (historical and cultural memory), human gaining strength from the beginnings, merges into the symbolism of the river Aras organically and turns into the philosophy and ideology of Azerbaijanism. In Soviet times, Mammad Araz was one of the poets who manifested his beliefs in Azerbaijanism openly. In his teaching of Azerbaijanism, the cultural and spiritual existence of the Azerbaijani people is as rich, valuable and equal to itself as the geography and the history of the native land. Mammad Araz's poems, like the heroic history of the people, literature, the image of the people of the word, heritage and values pass as an integral line. The poet turns the lesson of citizenship got from the classics into the main goal of Azerbaijanism in his activity. The citizenship mission is one of the main attributes of the poems by M. Araz and the central place in his civic lyrics is occupied by the theme of Araz, from which he took his pseudonym. The theme of "South" is the main target and subject of the poet's activity. In addition to the "poems about Araz", the motif of "the divided native land" and the idea of the integrity of Azerbaijan are present in many of his poems. The pain "South" is seen in Mammad Araz's poetry from a militant position, reflecting reality, as well as expressing the spirit of a nation that is not at peace with reality. He always believes that Azerbaijan will be whole and in his poems it comes alive as a real scene in dreams, wishes and imaginations.

Mammad Araz's poetry arms the reader with love of nature, land, native land, history, culture and spiritual memory and teaches him a lesson of citizenship. The poems by Mammad Araz capture the brains and hearts with the philosophical essence and aphoristic power and are loved by people. The poet's poetry was the poetry that prepared the Azerbaijani reader for the war of independence of the 1990s, for the sovereignty battle.

**Keywords:** *poems by Mammad Araz, ideal of Azerbaijanism, nature poems, love of land, independence poets, philosophical lyrics, aphoristic phrases*

**Rəyçi: akademik Nizami Cəfərov**